Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Ətraf mühitə laqeyd münasibət bəşəriyyəti böyük təhdidlərlə üz-üzə qoyub

## Ekologiya və ətraf mühitin mühafizəsi

**Dövrümüzdə ətraf mühitin mühafizəsi tarixdə heç olmadığı qədər aktuallaşıb. Hesab edilir ki, problemə kifayət qədər diqqət yetirilməməsinin nəticələri fəlakətli ola bilər. Söhbət burada təkcə bəşəriyyətin rifahından yox, artıq onun sağ qalmasından gedir.**

### Təbiətin qorunması əsrin əsas vəzifəsidir

İndi qabaqlayıcı tədbirlər görülmədiyi halda insanların yaşaması üçün təbii mühitin tənəzzülü geridönməz xarakter ala bilər. O da ciddi narahatlıq yaradan məqamlardandır ki, təbii mühitin çirklənməsi kompleks xarakter daşıyır. Sudan tutmuş havaya, torpağa qədər təbii mühitin insan fəaliyyəti nəticəsində məhvə sürüklənməsi müşahidə edilir. Burada suyun çirklənməsi insan sağlamlığına və balıq ehtiyatlarına ciddi ziyan vurur. Kənd təsərrüfatı torpaqlarının deqradasiyası bir çox ərazilərdə quraqlığa və torpaq eroziyasına səbəb olub. Buna görə qidalanma, aclıq, xəstəlik problemləri getdikcə özünü daha çox göstərir.

Havanın çirklənməsi də insan sağlamlığına getdikcə daha ciddi ziyan vurur. Meşələrin kütləvi qırılması, yanması iqlimə mənfi təsir edir və biomüxtəlifliyi, genofondu azaldır. Günəşdən gələn zərərli radiasiyadan qoruyan ozon qatının tükənməsi də sağlamlıq üçün ciddi təhlükədir. "İstixana effekti", yəni atmosferə karbon qazının artan emissiyası nəticəsində qlobal istiləşmə Yerin iqlimində fəlakətli dəyişikliklərə səbəb olur. Atmosferə atılan karbon qazının miqdarının durmadan artması Yerin istilik balansının pozulmasına və temperaturun artmasına səbəb olur. Qütblərdə temperaturun artması bu gün daha çox müşahidə olunur. Ona görə də Arktika və Antarktidada buzlaqlar əriyir və bu da son dərəcə təhlükəlidir. Mineral mənbələrdən səmərəsiz istifadə onların tükənməsinə gətirib çıxarır ki, bu da bəşəriyyətin sağ qalma problemini yenidən gündəmə gətirir. Nəhayət, radioaktiv və zəhərli maddələrlə əlaqəli müəssisələrdə baş verən qəzalar da insan sağlamlığına və təbiətə böyük ziyan vurur. Çernobıl Atom Elektrik Stansiyasında və Hindistanda Amerika Kimya Zavodunda baş verən qəzanı xatırlamaq kifayətdir. Ətraf mühitə böyük ziyan həm də silahlı qarşıdurmalardan qaynaqlanır, bunu Vyetnam, Kamboca, Fars körfəzi, Yuqoslaviyada, İraqda, Suriyada baş verən müharibələrin təcrübəsi sübut edir. Bütün bunlar fonunda təbiətin qorunması əsrimizin vəzifəsidir, həlli vacib olan ümumdünya xarakterli sosial problemdir. Amma problemin həlli istiqamətində addımlar yetərli deyil. Ətraf mühiti təhdid edən təhlükəni insanlar dəfələrlə eşidik, amma yenə də bir çoxları onları xoşagəlməz, lakin qaçılmaz bir sivilizasiya məhsulu hesab edir. Bu fonda insanların bir çoxu hələ də ortaya çıxan bütün çətinliklərin öhdəsindən gəlmək üçün vaxtın olduğuna inanır. Halbuki reallıq tamam fərqlidir. İnsanın ətraf mühitə təsiri geniş vüsət alıb. Vəziyyəti kökündən dəyişmək üçün məqsədyönlü və düşünülmüş fəaliyyətə ehtiyac var.



### Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə ermənilər tərəfindən vurulan böyük ziyan...

Ətraf mühit, xüsusən də iqlimlə bağlı baş verənlər Azərbaycan üçün də aktualdır. Bu gün dünya üçün ən aktual məsələlərdən biri də intensivləşən iqlim dəyişmələrinin aqrar sahəyə, ərzaq təhlükəsizliyinə göstərdiyi təsirlə bağlıdır. Artıq bu məsələ ilə bağlı dünya miqyasında araşdırmalar olduqca intensivləşib. Məsələ, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan üçün də xüsusi aktuallıq kəsb edir. Belə ki, iqlim dəyişmələrindən problem yaşayan sahələrdən biri də kənd təsərrüfatıdır.

Dünya Bankı ilə Asiya İnkişaf Bankı tərəfindən birgə hazırlanan "İqlim risqi olan ölkələrin profili" adlı son hesabatda bildirilir ki, aqrar sektor Azərbaycan iqtisadiyyatının mühüm sahələrindən biridir. Ölkə torpaqlarının təqribən 58 %-i əkinçilik üçün istifadə edilir. Hesabata əsasən, ölkə əhalisinin 36,4 %-i bu sahədə çalışır: "Kənd təsərrüfatında məhsuldarlıq ölkə ortalamasının altındadır. Kənd təsərrüfatı məhsullarının istehsalı 2013-2017-ci illərdə orta hesabla ÜDM-in 5 % -ni təşkil edib. Azərbaycanda iqlim dəyişikliyinin məhsul istehsalı proseslərinə birbaşa və dolayı yolla təsir edəcəyi gözlənilir. Birbaşa təsirlərə karbon qazı ilə bağlı məsələlər, yağıntılar və temperatur dəyişiklikləri daxildir. Dolayı təsirlərə su ehtiyatlarının mövcudluğu və mövsümi təsirlər, torpaq üzvi maddələrinin transformasiyası, torpaq eroziyası, zərərvericilərdəki dəyişikliklər və torpaqların deqradasiyası, səhralaşma səbəbindən əkin sahələrinin azalması daxildir". Bu səbəbdən hesab edilir ki, Azərbaycan iqlim dəyişmələrinin belə təsirinə qarşı indidən preventiv addımlar atmalıdır. Bundan əlavə, ölkəmizdə meşə sahələrinin artırılması da olduqca vacibdir.

O da yaddan çıxmamalıdır ki, Ermənistanın bəşəriyyətə və insanlığa qarşı yönələn terror siyasəti Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə ciddi ziyan vurub. İşğal dönəmində həmin yerlərdə fauna və flora ciddi zərər görüb, faydalı qazıntı yataqları təhlükəli formada istismar edilib. İndi Azərbaycan üçün əsas məsələlərdən biri bu zərərin aradan qaldırılması, işğaldan azad edilən ərazilərdə ətraf mühitin bərpa edilməsidir. Bu, ilk növbədə sağlam təbii mühit şəraitində yaşamaq üçün olduqca zəruridir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**